# Qəbələ yeni yüksəliş mərhələsində

## 2017-ci ildə sosial-iqtisadi inkişafın yekunlarına və qarşıda duran vəzifələrə dair Qəbələ Rayon İcra Hakimiyyətinin başçısı cənab Səbuhi Abdullayevin hesabat məruzəsi

*Qəbələdə sosial-iqtisadi inkişaf baxımından, abadlıq və quruculuq işləri sahəsində mühüm nailiyyətlər qazanılmışdır. Dağlar diyarının bügünkü inkişafı insanlarımızın hər şeyə qadir olduğunu sübut edir.*

**İlham ƏLİYEV.**



(Əvvəli 3-cü səhifədə).

"Əkin sahələrinin suvarma suyu ilə təminatının yaxşılaşdırılmasına və əhalinin içməli suya olan tələbatının ödənilməsinə dair əlavə tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 15 dekabr 2015-ci il tarixli Sərəncamına əsasən 2016-cı ildə Qəbələ rayonunda 3 ədəd (Qəbələ şəhəri, Vəndam qəsəbəsi, Zirik kəndi), 1 iyul 2016-cı il tarixli Sərəncamına əsasən isə əlavə 3 ədəd (Mıxlıqovaq, Zarağan, Məlikli kəndlərində) subartezian quyusu qazılmış, avqust ayında istismara verilmişdir.

Bunlardan əlavə Azərbaycan Respublikası Prezidentinin 17 mart 2017-ci il tarixli 2754 nömrəli Sərəncamına əsasən hesabat ilində Mıxlıqovaq kəndində daha 1 ədəd subartezian quyusu qazılmışdır.

Qəbələ Rayon Mənzil İstismar və Kommunal Müəssisələr Kombinatı il ərzində şəhər təsərrüfatına 469,3 min manat, ictimai yaşayış binalarına 53,6 min manat, idarə və müəssisələrə 89,2 min manat, kommersiya obyektlərinə və fərdi təsərrüfatlara 18,8 min manat olmaqla 630,9 min manat dəyərində təmizlik və digər kommunal xidmətləri göstərmişdir.

Hesabat dövründə Mamaylı-Bayramkoxalı avtomobil yolunda 71,1 min manatlıq təmir işləri, rayon ərazisində 902,9 min manatlıq cari təmir və yolların saxlanması işləri, 381,2 min manatlıq şəhərdaxili küçələrin asfaltlaşdırılması və sair işlər görülmüşdür. Eyni zamanda şəhərin Heydər Əliyev prospektində 2.400,0 min manatlıq asfaltlaşdırma və abadlıq işləri həyata keçirilmişdir.

Qəbələ Telekommunikasiya Qovşağı 1.282,0 min manat taarif gəliri proqnozuna qarşı 1.296,6 min manat gəlir əldə etmiş, proqnoz tapşırığı 101,1% əməl olunmuşdur. Ümumilikdə rayon üzrə 3582 nömrəlik 1 şəhər EATS-i, 8304 nömrəlik 23 kənd EATS-i, 96 nömrəlik 3 mini EATS-i fəalyyət göstərir ki, həmin EATS-lərinin ümumi montaj tutumu 11.982 nömrə təşkil edir. 4 kənddə 14 nömrə peyk rabitəsi ilə təmin olunub. Hazırda rayon üzrə hər 100 təsərrüfata düşən telefon abonentlərinin sayı orta hesabla 50 ədəd təşkil edir. İl ərzində şəhər və kənd əhalisinə 577 ədəd telefon çəkilmiş, 2.704 ədəd internet qoşulması verilmişdir. Genişzolaqlı internet xidmətindən istifadə edən abunəçilərin sayı 5.422 nəfərdir. Şəhər telefon şəbəkəsində 75 ədəd istismara yararsız rabitə dirəyi dəyişdirilmiş və yeni dəmir dirəklərlə əvəz edilmişdir. Rayonun "Almalıq" adlanan yaşayış massivində 100 nömrə üçün yeni şəbəkə tikilmiş, 75 nömrə çəkilərək abunəçilərin istifadəsinə verilmişdir. Heydər Əliyev prospektində və Nizami Gəncəvi küçəsində 150-yə yaxın zədəli xətt təmir olunmuşdur. Daşca kəndində 30 abunəçiyə, Nic qəsəbəsində 25 abunəçiyə, Vəndam qəsəbəsində 20 abunəçiyə və şəhərin Pastar məhəlləsində 30 abunəçiyə yeni telefon xətti çəkilmiş və internet qoşularaq istifadəyə verilmişdir.

"Azərpoçt" MMC-nin Qəbələ Filialı 275,5 min manata qarşı 318,7 min manatlıq poçt-rabitə xidməti göstərərək proqnoz tapşırığı 116 % yerinə yetirmişdir. Keçən ilin müvafiq dövrü ilə müqayisədə 43,2 min manat artım olmuşdur.

Dövlər Sosial Müdafiə Fondunun Qəbələ Rayon Şöbəsində 2017-ci il ərzində gəlirlər üzrə proqnozda nəzərdə tutulmuş 5.178,4 min manata qarşı 5.024,0 min manat məcburi dövlət sosial sığorta haqları toplanaraq proqnoz tapşırığa 97,0 % əməl olunmuşdur. Proqnozun icrası müvafiq olaraq büdcə təşkilatları üzrə 2.055,7 min manata qarşı 1.762,1 min manat və ya 85,7 %, qeyri-büdcə təşkilatları üzrə isə, 3.122,7 manata qarşı 3.261,9 min manat və ya 104,5 % olmuşdur. 2017-ci il ərzində 2016-cı ilin müvafiq dövrü ilə müqayisədə ümumilikdə 498,1 min manat və ya 18,0 % çox məcburi dövlət sığorta haqları toplanmışdır. Büdcə təşkilatları üzrə daxilolmaların azalmasına səbəb rayon təhsil və mədəniyyət işçilərinin əməkhaqqından ödənilən məcburi dövlət sığorta haqları üzrə daxilolmaların dayanması olmuşdur.

İl ərzində 1.512 sığortaedən qeydiyyata alınmışdır ki, bunlardan 63-ü hüquqi, 1.449-u fiziki şəxs olmuşdur. 1 yanvar 2018-ci il vəziyyətinə şöbə üzrə 11.542 pensiya işi üzrə 11.807 nəfər əmək pensiyaçısı qeydiyyatda olmuşdur. Hesabat dövründə pensiyaçılara ümumilikdə 24.213,4 min manat pensiya, 326,2 min manat məcburi dövlət sığorta haqları hesabına müavinət ödənilmiş, orta aylıq pensiya məbləği 2.019,1 min manat, bir pensiya işi üzrə isə orta aylıq pensiya məbləği 174 manat 93 qəpik təşkil etmişdir. Xərclənmiş vəsaitin 19.750,0 min manatı subsidiyalar, digər hissəsi isə yerli daxilolmalar hesabına olmuşdur.

Hazırda şöbədə əmək pensiyalarından əlavə 4.185 hərəkətdə olan sosial müavinət, 524 təqaüd işi vardır. Həmin müavinətlərin və təqaüdlərin ödənilməsi üçün tələb olunan vəsaitin orta aylıq məbləği 320,8 min manat təşkil edir.

Rayon suvarma sistemləri idarəsi tərəfindən yaşayış məntəqələrinin sel sularından qorunması, kənd təsərrüfatının suvarma suyu ilə təmin olunması üçün suvarma kanalları 379 min kubmetr lildən, daşqın və selə qarşı mübarizə məqsədilə 790 min kubmetr çay məcrası daş və qumdan təmizlənmiş, 240 kubmetr qabion bəndi vurulmuş, 1.015 kubmetr beton bəndi, 49 kubmetr şax bəndi cari təmir edilmişdir.

Qəbələ şəhərinin sel sularından mühafizəsi məqsədilə Dəmiraparan çayının sağ sahilində sahilbərkitmə və Nohur gölündə suaparıcı kanalın təmiri işləri başa çatdırılmışdır.



*Qəbələ IX Beynəlxalq Musiqi Festivalı.*

(Ardı 5-ci səhifədə).